**Təhməzli Aygün**

**UOT:339.2; JEL: K23;D13.**

# Azərbaycanda dövlətin sosial xərclərinin ümumi tendensiyasi: 2010-2020-ci illərdə təhsil, səhiyyə və sosial müdafiə xərcləri

***Xülasə***

*Məqalədə Azərbaycan Respublikasında sosial siyasəti həyata keçirməklə ictimai rifahın yaxşılaşdırılması, sosial ədalətin təmin olunmasının mümkünlüyü izah edilmişdir.Tədqiqatın əsas məqsədi dövlətin "sosial" xarakterinin müəyyən olunmasında sosial sferanın əsas istiqamətləri hesab olunan təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat sahələrinə dövlət büdcəsindən ayrılan xərclərin təhlilinin aparılmasıdır.Təhlilin aparılmasında analiz-sintez metodundan istifadə olunmuşdur.Təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat dövlətin və vətəndaşların bu günü və gələcəyi üçün çox vacibdir.Məhz bu səbəbdən ölkəmizdə "sosial dövlət" fenomenini qiymətləndirmək üçün bu araşdırmada 2010 və 2020-ci illər arasında dövlət tərəfindən bu sahələrə ayrılan xərclərin ümumi tendensiyasına baxılmışdır və tədqiqatın tətbiqi əhəmiyyəti də ondan ibarətdir ki, ümumilikdə sosial-mədani sahələrin xərc smetalarının tərtibi zamanı ondan istifadə oluna bilər.Son illərdə sosial sahəyə ayrılan dövlət xərclərinin artması ilə əlaqədar olaraq bu xərclərin təhlilinin aparılması tədqiqat işinin orijinallığını özündə əks etdirir.*

***Açar sözlər:*** *sosial siyasət, təhsil, səhiyyə, sosial müdafiə, sosial təminat, dövlət büdcəsi xərcləri*



## Giriş

Hər hansısa bir sahənin inkişaf etdirilməsi üçün maliyyə təminatının düzgün, şəffaf və ədalətli yerinə yetirilməsi əsas amil hesab olunur.Bu baxımdan hər bir dövlətin sosial sferanı yaxşılaşdırmaq və bununla da bütünlükdə sosial inkişafı təmin etmək məqsədilə həyata keçirdiyi siyasətin reallaşdırılmasında xərc siyasəti zəruri meyar kimi çıxış edir.Dövlətin sosial sahələrə ayırdığı vəsaitlər büdcə təsnifatına uyğun olaraq müəyyən edilir.Ona görə də büdcə gəlirlərinin düzgün idarə edilib bölüşdürülməsi çox vacibdir. Dövlətin sosial yönlü xərclərinin mərkəzində məhz iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi olan insan amilinə xidmət etmək dayanır.Ölkə vətəndaşlarının tələbatlarının qarşılanması və ümumi rifahının yaxşılaşdırılması həmin ölkənin sosial və iqtisadi cəhətdən inkişaf etdirilməsində vacib rol oynayan əsas məsələlər hesab olunur. Respublikamızda təhsil, səhiyyə, sosial təminat və sosial müdafiə və s. bu kimi məsələlərin inkişafı üçün qəbul edilən proqramlar, imzalanan sərəncamlar dövlət büdcəsindən ayrılan vəsaitlərin dinamik şəkildə artmasına səbəb olur [1]. Aparılan tədqiqat isə bir daha onu sübut edir ki, xərc maddələrinin nominal olaraq artımı heç də onun iqtisadi inkişafla birbaşa əlaqəsinin olduğunu ifadə etmir. Sosial və iqtisadi inkişafı təmin etmək üçün isə bu xərclərin səmərəliliyini artırmaq lazımdır. Artıq yuxarıda qeyd etdiyim kimi təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat məsələləri sosial sferanın vacib komponentləri hesab olunur.Məlumdur ki, hər bir ölkənin iqtisadiyyatı sosial sahənin inkişafı ilə bilavasitə əlaqədardır.Sosial sahəni inkişaf etdirmək üçün isə dövlət tərəfindən ayrılan xərclərin miqdarının artırılması deyil, səmərəliliyinin artırılması vacib şərt hesab olunur.

## Dövlətin həyata keçirdiyi sosial siyasət və onun mahiyyəti

Son illərdə bir çox ölkələrdə olduğu kimi Azərbaycanda da davamlı və dayanıqlı inkişafı təmin etmək, sosial-iqtisadi inkişafı əhəmiyyətli dərəcədə sürətləndirmək, vətəndaşların həyat səviyyəsini və həyat keyfiyyətini artırmaq üçün müxtəlif sosial yönümlü

©Aygün Təhməzli AMEA İqtisadiyyat İnstitutu, kiçik elmi işçi, doktorant. E-mail: aliyeva.aygun.93@mail.ru.
© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

layihələr və proqramlar həyata keçirilməkdədir.Məhz prezident İlham Əliyev tərəfindən aparılan müxtəlif yönlü islahatlar ölkənin iqtisadi vəziyyətinin müsbət istiqamətdə inkişafına təkan vermiş və ümumi rifah səviyyəsinin yaxşılaşmasına səbəb olmuşdur.Azərbaycanda əhalinin sosial tələbatlarının ödənilməsi dövlətin sosial siyasətinin əsas funksiyası hesab olunur. Sosial siyasət hərtərəfli bir fikir olaraq maarifçilik fəlsəfəsinə, bərabərliyə və tərəqqiyə söykənir və insan hüquqları ideyasına əsaslanır.[6, s. 132]Bu mənada sosial siyasət ümumilikdə vətəndaşların sosial vəziyyətinə təsir göstərir.Sosial siyasətin əsas vəzifələri vətəndaşları müəyyən bir yaşayış düzəni ilə təmin etmək, onlara sosial təminatı əlçatan etməkdən ibarətdir. Bu anlayışa əsaslanaraq sosial siyasətin elementləri aşağıdakı kimi sıralana bilər:

- ⇨ Milli gəliri artırmaq: Milli gəliri az olan ölkələrdə onu artırmaq üçün investisiyalar qoymaq, başqa sözlə, sosial ədalət qaydaları daxilində iqtisadi inkişafı təmin etmək
- ⇨ Milli gəlirin ədalətli bölüşdürülməsini təmin etmək
- ⇨ Fərdlərə sosial təminat vermək
- ⇨ Azadlıqların reallaşması üçün maliyyə imkanları ilə təmin etmək

Sosial siyasət hər zaman cəmiyyətin bütün üzvlərinin ləyaqətlə yaşamaq hüququnun olması ideyasına əsaslanır.Bu hüquq onların ümumi sərvətə verdiyi töhfədən asılı olmayaraq təmin edilməlidir.[7] Hər bir fərd əgər bu ölkənin vətəndaşıdırsa, onun dövlətin nəzərdə tutduğu bütün imtiyazlardan istifadə etməsi konsitusion haqqıdır.Bütün dövlət orqanları, səlahiyyətli şəxslər heç bir fərq qoymadan və əlavə gözləntisi olmadan buna çalışmalıdırlar.Layiqli həyatın cəmiyyətin bütün üzvlərinə bir haqq olaraq təqdim edilməsi fikri sosial siyasətin vəzifələri ilə sıx əlaqədardır.Sosial siyasətin əsas vəzifələri isə 5 başlıq altında qruplaşdırılır.Bunlar: sosial müdafiə, səhiyyə, təhsil, gəlirlərin yenidən bölüşdürülməsi və sosial təminat xidmətləridir.[5]

Əhalinin sosial tələbatlarının ödənilməsi başlıca olaraq dövlət büdcəsi tərəfindən həyata keçirilir.Dövlət tərəfindən bu sahələrə ayrılan xərclər büdcənin tərkibində əhəmiyyətli yer tutmaqla bərabər həm də sosial siyasətin reallaşdırılması üçün vacib şərt hesab olunur.Bu baxımdan sosial təminat, səhiyyə, təhsil xərclərini təhlil etmək mühüm əhəmiyyət kəsb edir. Sosial siyasət anlayışının inkişaf etmədiyi bir çox ölkə üçün təhsil, səhiyyə və sosial müdafiə xidmətlərindən istifadə etməyin imkansızlığının nəsildən-nəslə keçməyinin qarşısının alınması mümkün deyil.Bir ölkənin inkişaf göstəriciləri arasında təhsil, səhiyyə və sosial müdafiə çox böyük yer tutur.Sağlam olmayan və təhsil səviyyəsi yetərsiz olan çox insanı əhatə edən bir cəmiyyətin iqtisadi və sosial inkişafını həyata keçirə bilməyəcəyi və gəlir bölgüsündə ədaləti təmin edə bilməyəcəyi aydındır.[5] Təhsil və səhiyyə xərcləri işçi qüvvəsinin məhsuldarlığı baxımından kapitalın işinə yaradığı kimi, həm də siyasi demokratiyanın inkişafı üçün əhəmiyyətli zəmin yaradır.[3] Bundan əlavə, iqtisadiyyatın ən əsas amili olan insanları savadlı etmək iqtisadiyyatın gücünü və davamlılığını təmin edəcəkdir.[2]

Səhiyyə xidmətləri fərdlərin həyat keyfiyyətini və məhsuldarlığını artırması səbəbindən ixtisaslı işçı qüvvəsinin bir elementi olaraq qəbul edilir.Əslində, səhiyyə xidmətləri fərdi fayda verməklə yanaşı, bütün cəmiyyətə də sosial fayda verdiyi üçün dövlətin səhiyyə xidmətlərinin göstərilməsi və vətandaşlata təqdim edilməsində rolu qaçınılmazdır.Bu səbəbdən səhiyyə xərcləri də dövlət xərclərinin tərkibində prioritet bir yerə sahibdir.[4]

**Azərbaycanda səhiyyə, təhsil, sosial müdafiə və sosial təminat xərclərinin mövcud vəziyyətinin təhlili**

Azərbaycanda əhalinin sosial-mədəni tələbatları və ehtiyacları gündən-günə artmaqda davam edir.Bu isə öz növbəsində sosial islahatların daha geniş vüsət almasını, yeni sosial-iqtisadi inkişaf proqramlarının həyata keçirilməsini şərtləndirir.Dövlətin yerinə yetirdiyi sosial



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

siyasətin və sosial mühitin əsas istiqamətləri hesab olunan elm, təhsil, səhiyyə, sosial müdafiə, sosial təminat, mədəniyyət, idman, incəsənət və s. bu kimi sahələr qeyri-istehsal sferasına daxil olsalar da, bunlar inkişaf etmədən istehsal sahələrinin inkişafına nail olmaq qeyri-mümkündür.İqtisadi və sosial inkişaf yalnız birlikdə mövcud olduqda davamlı, dayanıqlı və tarazlı hesab olunur. Bu səbəbdən də dövlət sosial-mədəni sahələrin qurulmasına və təkmilləşdirilməsinə böyük önəm verir.Buna görə də vətəndaşların ictimai rifahını yaxşılaşdırmaq, sosial siyasəti səmərəli şəkildə reallaşdırmaq, əhalinin sosial təminatını gücləndirmək məqsədilə Azərbaycan Respublikasının dövlət büdcəsindən sosial sferaya hər il böyük məbləğdə vəsait ayrılır.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş proqramların icrası, təhsil sahəsində yeni məktəblərin tikilməsi və köhnə məktəblərin müasir standartlara uyğun bərpasının həyata keçirilməsi, tələbələrin, təhsil işçilərinin təqaüdlərinin və əmək haqlarının artırılması, səhiyyə sahəsində xəstəxanaların yeni avadanlıqlarla təchiz olunması, kadr potensialının təkmilləşdirilməsinə sərf olunan vəsaitlər, pensiya yaşına çatmış vətəndaşıların, əlillərin, xüsusi qayğıya ehtiyacı olan şəxslərin pensiya və müavinətlərinin artırılması büdcədən ayrılan sosial xərclərin əsas istiqamətlərini təşkil edir.

Dövlətin həyata keçirdiyi sosial siyasətin əsas tərkib hissələri olan təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat sahələrinin maliyyələşdirilməsinə büdcədən ayrılan vəsaitin 2010-2020-ci illər üzrə dinamikasını aşağıdakı qrafikdən görmək olar.

**Qrafik 1.**

**Təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat xərclərinin dinamikası**




Mənbə:Dövlət Statistika Komitəsinin göstəriciləri

Qrafik 1-də nominal dəyərlərlə ifadə olunan göstəricilər 2010 və 2020-ci illər arasında dövlətin təhsil, səhiyyə, sosial müdafiə və sosial təminata ayırdığı xərclərinin artım istiqamətində olduğunu göstərir.Bu qrafikdə xüsusilə səhiyyə xərclərinin 2010-cu ildə 429,2 mln manat olduğu halda, 2020-ci ildə 1687,6 mln manata çatdığını aydın şəkildə görə bilirik ki, bu da göstərilən müddətdə təxminən 4 dəfəyə qədər artım deməkdir.Xüsusilə, 2020-ci ildə səhiyyə ayrılan xərclərin 2019-cu illə müqayisədə təxminən 2 dəfəyə qədər çox olduğu görünür.Bunun əsas səbəbi isə 2020-ci ildən başlayaraq Azərbaycanda icbari tibbi sığortanın tətbiqi və onun yerinə yetirilməsi üçün əsas yükün büdcənin üzərinə düşməsi ilə əlaqədardır.Həmçinin 2020-ci ilin mart ayından başlayaraq ölkədə koronavirus infeksiyasının (Covid-19) yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının təmin olunması istiqamətində də səhiyyə sahəsinə yönəldilmiş dövlət büdcəsi vəsaitlərinin artımı baş vermişdir. Həmçinin büdcədən 2010 və 2020-ci illərdə sosial müdafiə və sosial təminata

ayrılan xərclərdə təxminən 3 dəfə, təhsil xərclərində isə 2,4 dəfə çox artım müşahidə edilməkdədir.Ancaq qeyd etmək lazımdır ki, bu göstəricilər nominal olaraq qiymətləndirmişdir.Bununla yanaşı, dövlətin təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat sferasına ayırdığı sosial xərclərin həqiqi mənzərəsinin necə dəyişdiyini görmək üçün onların real dəyərlərdə - yəni, ÜDM-dəki payı nəzərə alınaraq qiymətləndirilməsinin aparılması məqsədəuyğun hesab olunur.

**Qrafik 2**

**Sosial xərclərin ÜDM-də xüsusi çəkisi**




Mənbə:Dövlət Statistika Komitəsinin göstəriciləri

Qrafik 2-də 2010-2020-ci illər arasında dövlətin sosial xərclərinin ÜDM-də xüsusi çəkisi göstərilmişdir.Belə ki, bu illər ərzində səhiyyə, təhsil, sosial müdafiə və sosial təminat istiqamətlərində dövlət büdcəsindən ayrılan vəsaitin ÜDM-dəki payında artıb-azalmaların müşahidə olunduğunu görə bilərik.2011- ci ildə təhsil və səhiyyə xərclərinin ÜDM-də payında nisbətən azalma müşahidə olunsa da, sosial müdafiə və sosial təminat xərclərinin xüsusi çəkisində 2012-ci ilə qədər artım görülməkdədir.Ümumilikdə, səhiyyə və təhsil xərclərinin ÜDM-ə nisbəti oxşar dinamikanı ifadə edir, digər göstəricinin dəyişmə tendensiyası isə nisbətən fərqlidir.Belə ki, 2020-ci ilə qədər səhiyyə və təhsil xərcləri müvafiq olaraq 1,3% və 3% olmaqla 2015-ci ildə ÜDM-də daha çox xüsusi çəkiyə malik olsalar da, sosial müdafiə və sosial təminat xərcləri üzrə ən yüksək göstərici 4,4% olmaqla 2016-cı ildə qeydə alınmışdır.Bunu 2016-cı ildə bu sahədə aparılan yeni islahatlar, qəbul edilmiş yeni qanunlar və qərarların nəticəsində bu sahəyə ayrılan xərclərin artması ilə izah etmək olar.2018- ci ilə qədər hər 3 göstərici üzrə qrafik enməyə doğru meyllənmişdir.2019-cu ildən etibarən isə sosial xərclərin ÜDM-dəki payı artaraq 2020-ci ildə təhsil xərcləri üzrə 3,8%, səhiyyə xərcləri üzrə 2,3%, sosial müdafiə və sosial təminat xərcləri üzrə isə 4,3% təşkil etmişdir.Bu isə son 11 ilin statistikası üzrə ən yüksək göstərici olmuşdur.

**Nəticə**

Sosial siyasət insanları klassik azadlıqlarla təmin etməklə yanaşı, həm də onların yaşamaları üçün zəruri hesab olunan ehtiyaclarını ödəməyi qarşısısına məqsəd qoyur.Bu mənada sosial siyasətin həm ictimai rifahı yaxşılaşdırmaq, həm də sosial ədaləti bərqərar etmək kimi özəlliyinin olduğunu görə bilərik.Əslində, bu araşdırmada səhiyyə, təhsil, sosial müdafiə və sosial təminat sahəsinə ayrılan xərclərin sosial siyasətin həyata keçirilməsi üçün əsas göstəricilər olduğu müəyyən edilmişdir. Təhlil aparılan zaman yalnız Azərbaycan



© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

daxilində vəziyyət qiymətləndirilməklə dövlətin səhiyyə, təhsil, sosial müdafiə və sosial təminatla bağlı büdcədən ayırdığı vəsaitin həcmində 2010-2020- ci illərdə artan tendensiyanın müşahidə olunduğunu görürük.Lakin bu artım dinamikasında xərclər nominal dəyərlərlə öz ifadəsini tapmışdır.Halbuki dövlətin sosial xərclərinin artımının sağlam və etibarlı qiymətləndirilməsinin aparılması məqsədilə bu xərclər real dəyərlərlə nəzərə alınmalıdır.Bu məsələ bu məqalədə xərclərin aid olduğu illər üzrə ÜDM-dəki payı hesablanmaqla düzəldilmişdir.Dövlətin səhiyyə, təhsil, sosial müdafiə və sosial təminata ayırdığı xərclərin ÜDM-dəki xüsusi çəkisinin 2010-2020- ci illərdə artdığını müşahidə etsək də, baxılan dövr ərzində ciddi artımların olduğunu söyləmək mümkün deyil.Bu isə onu göstərir ki, nominal olaraq sosial xərclərin miqdarını artırmaq sosial-iqtisadi inkişafın təmin olunması üçün kifayət eləmir.İctimai rifahı yaxşılaşdırmaq, sosial ədaləti təmin etmək üçün dövlətin sosial xərclərinin iqtisadi səmərəliliyi yüksəldilməli, bunun üçün yeni islahatlar keçirilməli, daha effektiv qanunlar qəbul olunmalı və ən əsası, büdcədən ayrılan vəsaitin xəclənməsində tam şəffaflığın təmin olunması məqsədilə ciddi nəzarət mexanizmi yaradılmalıdır.

## Ədəbiyyat


1. Atakisiyev M. C. (2012) “Azərbaycan 2020: milli iqtisadiyyatin inkisafi və səmərəli yüksəlisin problemləri” (monoqrafiya), Baki, “Elm”.-430 səh.
2. Giddens, A. (2002), Sağ ve Solun Ötesinde: Radikal Politikaların Geleceği, (Çev. Müge Sözen ve Sabir Yücesoy), İstanbul: Metis Yayınları.
3. Koray, M. (2005), “Görülmek İstenmeyen Gerçek: Sosyal Refah Politikaları ve Demokrasi İlişkisi”,Çalışma ve Toplum, 2, ss.27-59.
4. Mutluer, M. K., Öner, E. ve Kesik, A. (2007), Teori ve Uygulamada Kamu Maliyesi, İstanbul:İstanbul Bilgi Üniversitesi Yayınları, No:185.
5. Özdemir, S. (2004), “Refah Devleti ve Üstlendiği Temel Görevler Üzerine Bir İnceleme”, Alpay Hekimler (ed.), AB-Türkiye&Endüstri İlişkileri, İstanbul: Beta Basım Yayım, ss.589-639.
6. Şaylan, G. (2003), Değişim, Küreselleşme ve Devletin Yeni işlevi, Ankara: İmge Kitabevi.
7. Yıldırım, E. (2000), “Küreselleşme, Refah Devleti ve Risk Toplumu”, Veysel Bozkurt (ed.) Küreselleşmenin İnsani Yüzü, İstanbul: Alfa Basım Yayım, ss.71-91.
8. www.statistics.gov.az




© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Айгюн Тахмазлы***
***Институт экономики НАНА, Баку, Азербайджан***
***e-mail: aliyeva.aygun.93@mail.ru***

***Общая тенденция государственных социальных расходов в Азербайджане: расходы на образование, здоровье и социальную защиту в 2010-2020 гг.***

***Резюме***

*В данной статье объясняется возможность повышения общественного благосостояния и обеспечения социальной справедливости посредством реализации социальной политики в Азербайджанской Республике. Основная цель исследования - определение «социальной» природы государства в сферах образования, здравоохранения, социальная защита и социальное обеспечение. При анализе использовался метод анализа-синтеза. Образование, здравоохранение, социальная защита и социальное обеспечение очень важны для настоящего и будущего государства и граждан. Поэтому в данном исследовании 2010 и 2020 годов для оценки феномен «социального государства» в нашей стране. Была рассмотрена общая тенденция государственных расходов на эти области на протяжении многих лет, и важность применения исследования заключается в том, что его можно использовать при составлении сметы расходов на социальные нужды. -культурные направления в целом. Анализ этих затрат в связи с ростом мужа отражает оригинальность исследования.*

***Ключевые слова:*** *социальная политика, образование, здравоохранение, социальная защита, социальное обеспечение, расходы государственного бюджета.*



***Aygun Tahmazli***
***Institute of Economics of ANAS, Baku, Azerbaijan***
***e-mail: aliyeva.aygun.93@mail.ru***

***General tendency of state social expenditures in Azerbaijan: education, health and social protection expenditures in 2010-2020***

***Summary***

*This article explains the possibility of improving public welfare and ensuring social justice through the implementation of social policy in the Republic of Azerbaijan. The main purpose of the study is to determine the "social" nature of the state in the areas of education, health, social protection and social security. Analysis-synthesis method was used in the analysis. Education, health, social protection and social security are very important for the present and future of the state and citizens. That is why in this study 2010 and 2020 to assess the phenomenon of "social state" in our country. The general trend of government spending on these areas over the years has been considered, and the importance of the application of the study is that it can be used in the preparation of cost estimates for socio-cultural areas in general. The analysis of these costs in connection with the growth of the husband reflects the originality of the research.*

***Keywords:*** *social policy, education, health, social protection, social security, state budget expenditures*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 07.06.2021.***
***Çapa qəbul olunub: 14.06.2021.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az